# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinin və süni torpaq sahəsinin icarə haqqının hesablanması ilə bağlı bəzi məsələlər haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 90 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinin və süni torpaq sahəsinin icarə haqqının hesablanması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılmaqla Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə sahilboyu yerləşən şəhər və rayonların zonalar üzrə bölgüsünü və həmin zona bölgüsü əsasında ayrılacaq su fondu torpaq sahələrinin və süni torpaq sahələrinin kağız üzərində və elektron formada qrafik təsvirini (xəritəsini) təsdiq etsin;

2.2. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birlikdə mütəmadi aparılan monitorinqlər nəticəsində şəhərsalma və ərazi planlaşdırılması sənədlərində edilmiş dəyişikliklər nəzərə alınmaqla, Xəzər dənizinin

(gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılacaq su fondu torpaq sahələrinin və süni torpaq sahələrinin icarə haqlarının real vəziyyətə uyğunlaşdırılması üçün sahilboyu yerləşən şəhər və rayonlar üzrə müəyyən edilmiş zonalar əsasında icarə haqqının məbləğinə (bazis qiymətinə) və qiymətləndirmə zonalarının sərhədlərinə yenidən baxsın və zərurət yarandıqda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə razılaşdırılmış təklif təqdim etsin;

2.3. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 13 ” “ mart ” 2025-ci il

№ 77

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 13 ” mart tarixli
77 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinin və süni torpaq sahəsinin icarə haqqının hesablanması**

**QAYDASI**

1. Bu Qayda “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun 9-cu maddəsinə uyğun hazırlanmışdır və süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinə və süni torpaq sahəsinə görə ödənilən illik icarə haqqının məbləğinin hesablanması qaydasını müəyyən edir.

2. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinin və süni torpaq sahəsinin 100 kvadratmetri üçün illik icarə haqqının bazis qiyməti 10,0 (on) manat təşkil edir.

3. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinin və süni torpaq sahəsinin 100 kvadratmetri üçün illik icarə haqqının məbləği sahilboyu zonada yerləşən şəhər və rayonlar üzrə aşağıdakı düsturla hesablanır:

$$Q = S_t \times B_q \times Z_ə + S_{sf} \times B_q \times Z_ə \times T_ə$$

burada:

Q - illik icarə haqqının məbləği;

$S_t$ - sahilboyu zolaqda, adada yerləşən və sahilboyu zolağa bitişik torpaq sahəsinin ölçüsü;

$S_{sf}$ - süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinin ölçüsü (sahilboyu zolaqda, adada yerləşən və sahilboyu zolağa bitişik torpaq sahəsi çıxılmaqla);

$B_q$ - bazis qiyməti;

$Z_ə$ - zona əmsalı;

$T_ə$ - təshih əmsalı.

Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinə (sahilboyu zolaqda yerləşən torpaq sahəsi çıxılmaqla) 0,6 həddində təshih əmsalı tətbiq edilir.

4. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi üzrə 9 zona müəyyən edilərək bu Qaydaya əlavədə göstərilən müvafiq zona əmsalları tətbiq edilir.

"Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinin və süni torpaq sahəsinin icarə haqqının hesablanması Qaydası"na

əlavə

**Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində 100 kvadratmetr süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinin və süni torpaq sahəsinin icarə haqqının məbləğinin müəyyən edilməsində tətbiq olunan zonalar və zona əmsalları**

| Zonalar | Zona əmsalları |
|---|---|
| 1 | 25 |
| 2 | 15 |
| 3 | 10 |
| 4 | 8 |
| 5 | 7 |
| 6 | 5 |
| 7 | 2,5 |
| 8 | 1,5 |
| 9 | 1 |